# ƏNƏNƏYƏ QAYIDIŞIN MÜASİRLİYİ

## XALQ RƏSSAMI, PROFESSOR ARİF HÜSEYNOVUN YARADICILIGINA BAXIŞ...



**Ziyadxan Əliyev**
*Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru*



Milli qrafika sənətimizin ta qədimlərdən bu günümüzə kimi davam etməkdə olan inkişaf tarixinin son bir qərinəlik mərhələsini əvvəllər bu sahədə qazanılanların analitik təhlili, gəlinən nəticələrə fərdi və fərqli müəllif yaşantılarının əlavə olunması səciyyələndirir desək, yanılmarıq. İctimai və fəlsəfi kateqoriyaların tez-tez ümumiləşdirilmiş mövzular, süjetlər və obrazlar vasitəsilə tamaşaçılara təqdimatı da Azərbaycan qrafikasının XX əsrin sonu və XXI əsrin əvvəllərinə təsadüf edən dövrünün bədii mənzərəsinin daha qabarıq görüntüləridir. Hər bir yaradıcı rəssamı səciyyələndirəcək bütün bu önəmli fəlsəfi-estetik tutumu və bədii-texniki məziyyətləri yaradıcılığının başlanğıcı ötən əsrin yetmişinci illərinə təsadüf edən xalq rəssamı, professor Arif Hüseynovun ərsəyə gətirdiyi dəzgah və kitab qrafikası nümunələrində izləmək mümkündür. Elə bunun nəticəsidir ki, onun əsərləri Azərbaycan təsviri sənətinin özünün çox təzadlı dövrünü yaşadığını sərgiləyən müasir mənzərəsində həmişə yeni və təravətli, ən başlıcası isə arzulanan görünür. Yəqin ki, bir yaradıcı kimi onun təhsil sonrasından özünüifadəyə və sənətkar "mən"ini təsdiqə yönəli axtarışlarının tapındığı vahid estetik konsepsiya çərçivəsində bu gün özünəməxsus üslub xüsusiyyətinin - fərdi dəst-xəttinin yaranmasını şərtləndirməsi də onun ən böyük qazancıdır. Və bu gün onun arxada qoyduğu 70 yaşın zirvəsindən "Allah vergisi"ni elə bu əvəzsiz ərməğana layiq - rəngin və plastik formanın dialektik birliyində ifadə olunan şərh formasında geri qaytardığını nümayiş etdirməsi də onun yaratdıqlarının həm özünün özünə, həm də sənət xiridarlarına ən yaddaqalan hədiyyəsi - hesabatıdır. Çünki, onun mayasında Azərbaycan incəsənətini şöhrətləndirmək istəyi durur. Onun bu vaxta qədər yaratdıqları və vaxtaşırı ictimailən yaradıcılığı da bunu təsdiqləyir...



Arif Hüseynov -Şeyx Sənan



Arif Hüseynov H.Cavid - Ana



Arif Hüseynov - Hüseyn Cavidin usaqlığı

Çağdaş qrafika sənətinin bu gün zənginliyi duyulan ifadə vasitələrinin dəst-xətt özünəməxsusluğu ilə yanaşı bir çox bədii-estetik məsələlərin həllinə yönəldilməsi heç şübhəsiz müsbət haldır. Tamaşaçı zövqünün duyulası dərəcədə dəyişdiyi və yüksəldiyi bir halda qrafika ustalarının müxtəlif hadisələri obrazlı biçimdə görüntüyə gətirmələri, təzadın romantik pafosu, sivilizasiyanın təbiətlə "yarışı", problemin qrotesksayağı, kəskin təqdimatı təbii qəbul olunur. İnsan və əşya, sivilizasiya və təbiət, insan və yaddaş, eləcə də neçə-neçə digər problemlərin qrafik yozumu da müəlliflərin həllinə çalışdıqları məsələlərdəndir. Bütünlükdə götürdükdə çağdaş qrafika ustalarının təfəkkürün, düşüncə tərzinin əvvəlki dövrlərdən fərqli olaraq məzmun çoxşaxəliyi, düşüncələrin təzadı və nəhayətsizliyi, onun romantik-poetik pafosla zənginləşdirməyə meylli olduqlarını vurğulamaq istərdik.

Hələ uşaqlıq vaxtlarında rənglərə olan sevgisini görkəmli pedaqoq Nadir Axundovun həm də məcazlarla ifadə etməyi öyrənən xalq rəssamı Arif Hüseynov sonralar hər sənətkara müyəssər olmayan bu yaradıcı-bədii məziyyəti məşhur "Əzimzadə məktəbi"ndə və M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda tanınmış sənətkarlardan aldığı dəyərli tövsiyələrin nəticəsində kifayət qədər cilalamaqla, ona müxtəlif məzmunlu əsərlərində cəlbedici, təsirli və düşündürücü görkəm verə bilmişdir, desək, həqiqəti ifadə etmiş olarıq.

Onun bu yolu asanlıqla keçib gəldiyini söyləmək təbii ki, düzgün olmazdı. Bakıda əslən Abşeronun Qala kəndindən olan Şahbaz müəllimlə Şərəf xanımın ailəsində dünyaya göz açan Arifin peşə seçimində demək olar ki, çətinliyi olmayıb. Bacısı Sürəyyanın həkim, onunsa rəssam olmaq istəyinə "ailə toplantısı"nda yaşıl işıq yandırılıb. Əslində elə belə də olmalıydı. Çünki, hər gün paytaxtdan Sumqayıta yol alıb uşaqlara qələm tutmağı, hərf yazmağı öyrənməkdən usanmayan Şahbaz müəllim də, elə zavodda fəhlə işləyən Şərəf xanımın nə Arifdən, nə də Süreyyadan narazılığı yoxdu. Hər gün axşamlar şagird dəftərlərini yoxlayandan sonra ruhuna yaxın Azərbaycan şairlərinin şeir və qəzəllərini ayrıca tərtib etdiyi "can dəftəri"nə (ailə arxivində indiyə qədər qorunan bu dəftərdə Şahbaz müəllimin karandaşla çəkdiyi bir qız rəsmi də vardır) köçürməkdən böyük həzz alan Şahbaz müəllim hərdən gözaltı otağın o biri küncündə balaca Arifin rəngi rəngə calamasına baxar, gördüyü bu mənzərədən xüsusi ləzzət alardı. Yeri gələndə oğlunun onu haralara aparacaq səylərini dəyərləndirməyi də yaddan çıxarmazdı. Beləcə, evdə valideynlərinin, kənarda isə ürəkdən bağlandığı peşənin sirlərini öyrənməyə üz tutduğu dərnək və təhsil ocaqlarında müəllimlərin qayğısı ilə öz arzularına doğru getməkdə idi. Odur ki, onun həm rəssamlıq məktəbinə, həm də instituta qəbul olunmasını hamı bir qanunauyğunluq kimi qarşıladı.



H.Nəsiroğlu-Dostluq sarjı



Cırtdan

1962-ci ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini (Bağır Maratlı və Böyükağa Mirzəzadədən dərs almışdır), 1972-ci ildə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunu ( Mikayıl Abdullayev, Rəhim Məmmədov və Tokay Məmmədovun sinfində oxumuşdur) bitirən rəssamın bu günə kimi keçdiyi yaradıcılıq yolu düz qırx beş ilə (o, 1968-ci ildə ilk dəfə respublika sərgisində iştirak etmişdir) çatıb. Uzun illərdir ki, müxtəlif miqyaslı yerli və beynəlxalq sərgilərdə iştirak edən Arif Hüseynov Azərbaycan təsviri sənətində özünməxsus dəst-xətli qrafika ustası olduğunu təsdiqləyə bilmişdir. Rəssamın "Bakılı" cəmiyyətinin təsis etdiyi beynəlxalq "Humay" mükafatına (1995) layiq görülməsi, ona əvvəlcə Azərbaycan Respublikasının əməkdar rəssamı (1992), sonra isə Azərbaycan Respublikasının xalq rəssamı (2006) fəxri adlarının verilməsi, 2008-ci ildən isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olması bunun göstəricisidir. Hazırda Arif Hüseynovun dəzgah və kitab qrafikası sahələrində yaratdığı müxtəlif mövzulu əsərlər Bakı və Moskvanın nüfuzlu muzeylərini, yerli və xarici kolleksiyaların saxlanclarını bəzəyir. Etiraf edək ki, bu qismən qeyd etdiklərimizin qarşılığında rəssamın indiki yetmiş yaşında arxaya inamla dönüb baxmağa tam haqqı vardır. Bizcə, daha önəmlisi görülənlərin həm müəllifin özünə, həm də bütünlükdə milli təsviri sənətimizə qürur hissi gətirməsidir. Ancaq onun xarakterinə kifayət qədər bələdçiliyimizdən deyə bilərik i, o, əldə olunanlardan kifayətlənən deyil. Odur ki, o, bütün vaxtlarda axtarışdadır, başqa sözlə desək, həyatda gördüklərindən heyrətlənməkdədir. Elə bu yaradıcı məziyyətin tükənməzliyindəndir ki, onun əsərləri hər bir sərgidə sənətsevərlər tərəfindən maraqla qarşılanmaqda, çox vaxt mükalimə mövzusu olmaqdadır. Dünyamızı təzadlı cizgilər selinə "qərq edib", oradan gözəllik qaynaqlarına bələnmiş təsirli təsvir motivlərini çıxara bilməsindəndir ki, görünənlər adi tamaşaçını da, sənət xiridarlarını da heyrətləndirməkdədir.

Uzun illər ərzində öz tükənməz yaradıcılıq potensialını dəzgah və kitab qrafikası sahəsində istifadə edən rəssamın son illər qədim miniatür üslubu ənənələrinin yeni forma-biçim və bədii-estetik tutumda dirçəldilməsinə səy göstərməsi çox diqqətçəkəndir. Onun bu yöndə milli folklora, adət-ənənəyə, maddi-mədəniyyət nümunələrinə həsr etdiyi silsilə rəsmləri qədim miniatürlərimizə yeni və yaradıcı baxış hesab etmək olar. Rəssamın həm 2008 və 2010-cu illərdə təşkil olunan "Şərqdən-Şərqə" sərgilərində nümayiş etdirdiyi qrafik nümunələr, həm də Məhsəti Gəncəvi yaradıcılığına həsr etdiyi qırx əsərini (2013) onun miniatür üslubuna müasirliyi duyulan münasibəti, eyni zamanda incə qəlbli şairənin rübailərinə nüfuzetmə istedadının yeni təsdiqi hesab etmək olar.

Rəssamın 2014-cü ildə keçirilən "Əsrlər-nəsillər" müsabiqə-sərgisində nümayiş olunan "Azərbaycan Demokratik Respublikasının generalları" silsiləsini də bədii həllinin orijinallığına görə müasir qrafika sənətimizin uğuru hesab etmək olar.

Hazırda professor Arif Hüseynov Azərbaycan tarixinin ağrılı səhifələrinə "bədii güzgü" tutan yeni əhatəli silsilə üzərində çalışır. Məqsədi tariximizin bu vaxta qədər bədiiləşdirilməyən bir çox səhifələrini əyaniləşdirmək, onlara özünəməxsus bədii tutum verməkdir.

Sonda onun qeyri-adi təşkilatçılıq bacarığına malik olmasını qeyd etməsək, yəqin ki, onun çoxlarına və bizə də yaxşı tanış olan portret cizgiləri natamam olardı. Uzun illər ölkəmizdə ilk uşaq jurnalı olan "Göyərçin"in bədii redaktoru və Azərbaycan Rəssamlar İttifaqının "Miniatür və kitab qrafikası" bölməsinin sədri vəzifələrini daşıyan Arif Hüseynov onlarla sərgi və müsabiqələrin keçirilməsində təşəbbüskar olmuş, yüzlərlə sənət yanğılı gəncin yoluna yaşıl işıq yandırmaqla xeyirxahlıq nümunəsi göstərmişdir. Elə bu insani və yaradıcı keyfiyyətlərinə görə də "Arif Hüseynov" adı sənətsevərlər və həmkarları arasında qürurla səslənməkdədir...



Qulaq falı



Od çərşənbəsi



Kəndirbazlar